# COP-28-in iştirakçıları Azərbaycan pavilyonunu ziyarət ediblər

**COP-28 platformasında Azərbaycan nümayəndə heyətinin bir sıra panel iclaslarda iştirakı və eyni zamanda Azərbaycan pavilyonuna qonaqların ziyarətləri davam edir.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Hökumətlərarası Ekspert Panelinin sədri Cim Skeya ölkəmizin pavilyonunu ziyarət edib. Azərbaycan pavilyonunda ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə keçirilən görüş zamanı Azərbaycanda iqlim dəyişmələri risklərinin öyrənilməsi, Xəzər regionu üzrə elmi araşdırmaların aparılması və növbəti 7-ci qiymətləndirmə dövrü hesabatının hazırlanmasına Azərbaycan alimlərinin cəlb edilməsi məsələsi müzakirə edilib.

Uzun müddət Meksikanın xarici işlər naziri vəzifəsində çalışmış, 2016-2022-ci illərdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi olmuş Patrisia Espinoza və Meksikanı COP-28-də təmsil edən nümayəndə heyətinin üzvləri də Azərbaycan pavilyonunu ziyarət edən qonaqlar arasında olublar.

Keçirilən ikitərəfli görüş zamanı ölkənin iqlim dəyişmələri sahəsində atdığı addımlar, qlobal səylərə töhfələr, bu sahədə regional və beynəlxalq əməkdaşlığın vacibliyi məsələləri görüşün müzakirə obyekti olub.